## Mo Yan

# ÇAXIRISTAN

(romandan parça)

Əyalət prokurorluğunun mühüm işlər üzrə müstəntiqi Din Qouer kömür daşıyan maşının kabinəsində atalana-atalana gedirdi. Onun yolu Loşan şaxtasınaydı, orda təhqiqat aparacaqdı. Ağlına gələn cürəbəcürə fikirlərdən başı şişmişdi elə bil. 58 ölçülü mixəyi beysbol papağı başını – çənbər kimi sıxırdı. Halbuki bu papaq əvvəllər başına rahat otururdu. Qouer axırda lap təngə gəldi və beysbol papağını başından qapıb götürməkdən özgə çarə tapmadı. Papaq tərdən tamam islaqdı. Burnuna başqa çiy və soyuq iylərə qarışıq yağlı saç qoxusu vurdu. Bu qoxu o qədər yad idi ki, ürəyi bulandı. İstər-istəməz əlini boğazına atıb qusmağını güclə saxladı...

Kömür mədəninə bir az qalmış yol birdənbirə korlandı, ressorlar cüyüldədi, çala-çuxura düşən maşın istər-istəməz yavaşıtdı. Din Qouerin başı tez-tez kabinənin tavanına dəyməkdəydi. Sükan arxasındakı gözəgəlim qadın yolu da, adamları da latayırı söyüşlərnən bəzəyirdi. Qızın ağzından elə sözlər çıxırdı ki, az qalırdın sən də ona qoşulub qurşaqdan aşağı söyəsən. Din Qouer dinməsə də, özünü saxlaya bilməyib tərs-tərs şofer tərəfə baxdı. Şofer gömgöy paltardaydı. Çəhrayı köynəyin yaxalığı pırtlayıb ağca boğazını örtürdü. Qısa vurulan cod, şəvə saçı işım-işımdı. Ağ əlcək geyinmiş əlləri sükandan möhkəm yapışmışdı. Yaşımtıl, parıldaq gözləri, fikri-zikri yoldaydı. Maşını ora-bura qaçırdır, ha istəyirdi ki, çalaçuxura düşməsin. Maşın sola əyiləndə ağzı da o tərəfə əyilir, sağa ləngər vuranda qızın ağzı da qıyını dəyişirdi. Gah sağa, gah da sola... Qızın burnunun ucunda tər puçurlanmışdı. Artıq qırış bağlamış alnı yastıydı – çənəsi qətiyyətli, dodaqları qalın – belə görünür ki, qadın çox ehtiraslı və çılğının biriydi. Maşın bir də atıb-tutanda istər-istəməz qızla Din Qouerin bədəni toxunuşdu. Və paltarın üstündən belə – tamarzı görükən dəri isti bədənin yaxınlığını hiss elədi. Və birdən-birə Din Qouerin könlündən bu qıza sürtüşmək, ona əl atıb sıxçalamaq keçdi. Əlbəttə, bu istək – üzü üzlər görmüş, 48 yaşın içində olan müstəntiq üçün adi bir şey idi. Amma müstəntiq məhəl qoymadı, başını yellədib, üzünü qızdan döndərdi.

Yol get-gedə əngəlləyirdi. Kömür maşını gah o çalaya, gah bu çuxura düşür, atıb-tutur, öz pəncələrinə yiyə dura bilməyən nəhəng və tərs bir heyvan kimi qabağa sürünməkdəydi... Nəhayət, uzanıb gedən maşın cərgəsinin lap quyruğuna dirənib dayandılar. Şofer qız ayaqlarının qıcını açıb, motoru söndürdü. Əlcəklərini çıxarıb, sükanı yumruqladı, Din tərəfə qıyqacı baxıb cod səsnən çımxırdı:

- Xarabanın yoluna bax da! Yaxşı ki, qarnımda uşağım yoxdu!

Din bu sözdən diksinsə də, hər halda qıza yarınmaq istədi:

- Daha demə, bu atıb-tutmaya qarında uşaq qalar?

- Heç qoyardım atıb-tuta?! – Uşağa görə iki min yuan verirlər.

- Bu sözü deyib ərklə müstəntiqə sarı döndü, görünür Dindən dediyi sözün cavabını umdu.

Din Queri sevinc qarışıq bir çəkərək, həm də maraq çulğadı. Yonulmamış bu qısa kəlmələrin havasından Din özü də anladı ki, həs-hüs bilməməzliyi və bütün əyər-əskiyiynən həmən bu göygöz kartof səbətinə yumbalanıb düşübdür. Cinslər arasındakı qadağa, abır-həya harasa buxarlanıb getdi və artıq onların arasındakı məsafə də aradan götürüldü. Bu şofer qızın dilindən çıxan sözlərdən sonra araya elə bir münasibət çökdü ki, həmin münasibət Dinin varlığına sindi və müstəntiqin qəlbində şübhə qarışıq bir qorxu yaratdı. Ürkək-ürkək qıza tərəf çöndü. Qızın ağzını azcana əyməyinən Din özünü hətta itirən kimi də oldu. Axı indiyəcən bu qadın yol boyu onun gözünə cəsarətli, sözünü şax deyən, həm də bənzərsiz bir adam təkin görükmüşdü. Qızın yersiz kinayəsi, həm də ağız büzməsi nə müstəntiqi nə üçünsə dilxor elədi. Birdən-birə ona əyan oldu ki, heç demə bu qadın dünyanın hər zövqü-səfasından uzaq bir adammış və bundan ötrü ürəyində heç çəkib-çevirməyə də dəyməzmiş.

- Uşaq gözləyirsən? – soruşdu Din.

Qadın münasibətin bişmiş, ya çiy formalarını bir qırağa tullayıb, həyasız tərzdə dilləndi:

- Dərd ondadı ki, mən şoranam.

Dinin beynində dəbərən fikrə bax, – "Sən neçə ilin müstəntiqisən. Odur ki, boynuna böyük məsuliyyət düşür, qadın tayfasınasa səndən artıq". Birdən işdəki həmkarların onun barəsində dediyi ağlına gəldi: "Din xırdaca bir şeydən yapışıb hər hansı cinayəti açmağı bacarır". İstər-istəməz iradəsinə güc verdi. Cibindən çaxır dolu matara çıxardı, qapağını burub açdı, fərli bir qurtum alıb, şofer qıza uzatdı. Əli qızın döşünə dəydi. Üstündən öz sözünü də yeritdi:

- Mən kənd təsərrüfatı mütəxəssisiyəm. Özü də suvarma üzrə...

Qız bütün hikkəsiylə maşının siqnalını basdı, amma nədənsə siqnalın səsi çox zəif, həm də boğuq çıxdı.

- Bura bax, sən get öz ana-bacıvın məməsini əllə! – şofer qız bunu hirslə çımxırdı və maşının kabinəsindən sıçrayıb yerə düşdü.

Gəl ki, mataranı əlindən buraxmadı. Əvvəlcə qoxlayıb elə bil çaxırın necəliyini bilmək istədi, sonra başını qovzayıb, qurta-qurtnan içdi. Din Quer əvvəl istədi onu təriflәsin. Desin ki, çox ləzzətnən içirsən, amma fikrindən daşındı, susdu, söz demədi. Din ağzının qıyını silib, qızın çaxırdan islanmış, həm də allanmış dopdolu dodaqlarını marıtladı, hər halda özünə-sözünə yiyə dura bilmədi.

- Gəl bir öpüm səni.

Qızın çöhrəsi qıpqırmızı qızardı, qarpışmadan çıxmış kimi cır səsnən qayıtdı:

- Ay öpdün ha, gicbəsər!

Özünü-sözünü itirən Din Quer ətrafa göz gəzdirdi: başqa bir maşının sürücüsü yerdə deyildi, kabinəyə çıxmışdı və onlara fikir verən bircə nəfər belə yoxuydu. İrəlidə maşın sırası qıvrılıb dayanmışdı; onlardan arxada eşşək arabası, onun da dalında qoşqulu bir yük maşını. Eşşəyin yastı alnına düşən qəttəzə qırmızı saçaq gecənin zıldırında alov dili kimi qızarırdı. Yolun hər iki tərəfi ilə xəndəklər uzanıb gedir, səllimi bitib bərkiyən otların arasında əyri-üyrü, boydan yanıq, xəstəhal ağaclar görsənirdi. Yarpaqlar və otlarsa tozdan qapqara... Payız qurtara-qurtardı; xəndəklərdən o yana təntənəli bir sükut içində, xəzan küləyinə sinə gərən bozumtul kövşənlər uzanıb gedirdi. Nə sevinc, nə bir kədər nişanəsi... Həndəvərdə kömür təpələri qaralırdı. Onların başı üstündəsə tullantılar sarımtıl rəngdə tüstülənməkdə, mədən bucurdaqı isə dayanmadan, çox sirli və qəribə tərzdə fırlanmaqdaydı. Yarıyacan görükürdü, yerdə qalanını yük maşını örtmüşdü.

Şofer qızsa elə çığırmağında... – Məni

öpənə bax! Qulağıvın dibin görərsən! – bunu desə də yerindən tərpənmədi. Qızın haray-həşiri Din Qoueri bir balaca qorxutsa da, amma qımışıban şəhadət barmağıyla yenə qızın döşünə astaca toxundu – elə bil nəyinsə start düyməsini basdı: qız buna bəndmiş kimi bütün bədəni ilə onun üstünə çökdü, buz kimi soyuq əlləri ilə müstəntiqin başını qamarladı və Dinin dodaqlarını sümürməyə başladı. Qızınsa dodaqları yumşaq olsa da, sop-soyuqdu və özü də qəribəydi ki, köhnə pambıq kimi cod, ləzzətsizdi. Din qıza qarşı bütün marağını itirib onu qırağa itələdi. Ancaq pələng balası kimi cuşə gələn qız təzədən onun üstünə şığıdı və hər dəfə də dişiynən dodağının arasındakı söz elə bu idi:

- Mələdəcəyəm səni...

Din çabalayıb qızdan yaxasını qurtarmaq istədisə, – bacarmadı. Adətən cinayətkarlara qarşı işlənən bir fənddən sonra qızı bir təhər özündən aralaya bildi.

İkisinin də nəfəsi təntidi. Din Qouer qızın biləklərindən yapışıb onun müqavimətini qırmağa çalışdı. Qızsa yay kimi qıvrılıb açılır, onun əlindən qurtulmaq istəyir, tərs düyə kimi böyürürdü. Müstəntiqi yenə gülmək tutdu.

- Nəyə gülürsən? – qəfil soruşdu qız.

Din Qouer qızın əllərini buraxıb, cibindən vizit kartı çıxardı:

- Xanım, mən getdim. İşdi, yadına düşsəm, məni bu ünvanda axtar!

Qız onu başdan-ayağa süzdü, sərhədçi turist pasportuna baxan kimi vizit kartına nəzər saldı, sonra yenə Dinin üzünə döyükdü.

Din Qouer qızın burnunun ucunu yüngülcə çırtmalayıb dəri qovluğunu qoltuğuna vurdu və qapının dəstəyinə əl atdı:

- Hələlik, balası. Amma sənə deyim ki, mənim gübrəm şoranlığa dərmandı.

Elə yarıyacan maşından çıxmışdı ki, qız onun ətəyindən yapışdı. Sifəti çaşqındı və Din birdən anladı ki, bu – doğrudan da sütül bir qızmış, nə bu vaxtacan ərə gedib, nə də bir kişi üzü görüb. Yazığın, biçarənin biriymiş. Qızın əlini sığallayıb, şax onun üzünə qayıtdı:

- Qızım, mən sənin atan yerindəyəm.

- Yalançı! – deyə qız hirslə çımxırdı. – Texniki xidmətəcən gedəcəkdin bəs?

Din gülümsədi:

- Bir-iki addım qalıb, çatmışıq.

- Casus!

- Olum da.

- Bilsəydim casussan, heç mindirməzdim!

Din Qouer cibindəki siqaret qutusunu övkələdi.

- Yaxşı, hirslənmə.

Qız mataranı xəndəyə tulaz verdi:

- Bu da özün kişi sayır. Mataranın elə adı var!

Din Qouer yolun qırağına tullandı, ardınca qapını çırpıb irəli addımladı.

Arxadan qızın səsini eşitdi:

- Ey casus! İrəlidə nə olub görəsən?

Din Qouer arxaya dönüb gördü ki, qız pəncərədən başını çıxarıb onun dalınca baxır, – gülümsündü, bir söz demədi.

Qızın mayotu gülünə bənzəyən çöhrəsi Din Qouerin yaddaşında bir neçə anlığa ilişib qaldı, sonra pivə parçının şəffaf divarında köpüşən qovuqlar kimi partladı və eləcə yoxa çıxdı. Kömür mədəninə aparan ensiz yol zığ içindəydi, bağırsaq kimi uzanıb gedirdi. Yük maşınları, traktorlar, kəl, ya da öküz qoşulu arabalar – hər löyündən olan rəngarəng nəqliyyat – ağız atıb quyruğunu dişləyən hansısa bir vəhşi heyvana bənzəyirdi. Bəzi maşınların işığı sönülü, kimisi də – yanırdı. Traktorların qabağına dikili, avtomobillərinsə dalındakı tüstü boruları burum-burum tüstü gəyirməknən məşğul idi. Axıracan yanmamış benzin və traktor yanacağının iyi heyvanların qoxusuna qatışıb yolun üzərinə bir boğanaq kimi sinmiş-

di.

Müstəntiq maşınların arası ilə, bəzən də budanmış yastı-yapalaq ağaclara çiyni toxuna-toxuna, şaxtaya tərəf addımladı. Kabinədə oturan sürücülərin, ya arabanın samısına söykənib duruxmuş arvadların demək olar ki, hamısı içməkdəydi. Görünür, burda sükan arxasında içməyin qadağasını hərləyən yoxuydu. "Hələ nə qədər yolum qalıb?!" Müstəntiq qəzəblə başını qovzadı: mədənin ortasındakı hündür dartayın yekə bir parçası görükürdü. Boz-gümüşü polad burğac hərlənib-dolanır, gün işığındamı, ya elə boyadanmı tünd qırmızıya, bulaşıq pas rənginə çalırdı.

Mədənin qabağındakı yastı meydan da maşın və arabalarnan doluydu. Qırağı məbədə bənzər çəlimsiz küknarlar kömür tozuna bulanmışdı. Təpədən-dırnağa zımrığ içində olan, başını iynəyarpaqların arasına dürtüb nəsə qırpmaq, ya da elə-belə qaşınmaq üçün təpilən uzunqulaq – birdən-birə asqırdı. Arabaların birinin yanında neçə nəfərsə kopalıydı. Gündənmi, kömürdənmi qaralmış sifətlər, başları ləçəkli, köhnə-kürə paltarlar, kəmər yerinə bağlanmış adi ciyələr. Arabaya qoşulu at hörülmə, yastı səbətdəki samandan asta-asta gəvələyirdi. Arabaçı arvadlar öz içməklərindəydi. Tünd bənövşəyi rəngli bir şüşə əldən-ələ gəzir və hər növbəsi çatan da böyük ləzzətnən şüşəni başına çəkirdi. Hər içən də ortadakı iri ağ turpdan xarıltı ilə dişdəm götürürdü. Din Qouer içməkdə çox usta olmasa da, düşəndə həvəsnən başını açırdı. Çaxırın yaxşı-yamanını da ayırd eləyəndi. Qoxusundan anladı ki, əldən-ələ gəzən o şüşədəki içki elə də fərli deyil. Araqla turpun qoxusu hətta havaya buraxılan qazın qoxusundan belə kəsifdi. Yemək-içməklərindən, üst-başlarından bəlliydi ki, bu arvadlar ətraf kəndlərdəndi. Müstəntiq yanlarından keçəndə onlardan biri xırıltılı səslə qarıldadı:

- A yoldaş, saatın neçədi?

Din Qouer saatına baxıb dedi. Gözləri qızarmış, üzünü kürən tük basmış cavan kəndçi balasının sifətində elə bir hiddət vardı ki, müstəntiqin ona baxanda ürəyi sıxıldı və o addımlarını yeyinlətdi.

Kəndçi onun dalınca söyləndi:

- Denən, o donuzlar qapını tez açsın! Lap ağ eləyiblər haa!

Bu gözgörəti acıqdan müstəntiqin halı da dəyişdi, istər-istəməz o da içəridən höyulləndi. Saat on birə işləyib, hələ də mədənin dəmir qəfəsəli darvazası bağlıdı, qapıdan tısbağa çanağına oxşayan yekə bir qıfıl asılıb. Darvazaya düz 8 dənə iri polad layı qaynaqlanıb. Qırmızı rəngli iri heroqliflər o dəqiqə diqqəti çəkir – "İstehsalatda təhlükəsizliyə əməl edin!" və "Bir may bayramınız mübarək!" - hərçənd ki, bunların rəngi çoxdan solub. Əsrarəngiz payız günəşi elə bil bütün bunlara təzə nəfəs verir və mədənin qaralan fonunda səmanın maviliyi daha artıq nəzərə çarpırdı. Ətrafın relyefinə uyğun burula-burula gedən, boz kərpicdən hörülü, adam boyundan azcana hündür olan çəpər – ərazinin dövrəsində gah alçalır, gah da hündürlənirdi. Darvazanın dərbəçəsi azca aralıydı və Dərbəçədən – qapının ağzında yıxılıb yatan yekə kürən it görsənirdi. İtin başının üstündəsə yarımcan bir kəpənək payız yarpağı kimi hərlənməkdəydi.

Din Qouer dərbəçəni açmaq istəyəndə it ona sarı cumdu, az qaldı itin tərləmiş burnu müstəntiqin əlinə dəysin. Daha doğrusu, ovcuna toxundu, çünki it burnunun sərinliyini ovcunda hiss elədi. Rəngi isə əcaib balıq rəngindəydi, ya da hansısa meyvənin qabığına çalırdı. Amma birdən it həsdədi, bayaqkı hirsi soyudu elə bil. O dəqiqə kölgəyə dızıxıb qurumuş ağac budaqlarının arasına təpildi və düzbucaq başını silkələyə-silkələyə uladı.

Din Qouer əl atıb cəftəni çəkdi, dərbəçəni itələyib bir anlığa duruxdu; söykəndiyi dəmirin sərinliyi kürəyini soyutdu və bir gözü eləcə

qorxmuş itdə, – heyvanın iri sümüklü, qaraca damarlı əlinə gözü sataşdı: əlbəttə, onun da qanında alqokol var, amma elektrik, ya da başqa şey yoxuydu. İtdən soruşmaq istədi ki: "Nə oldu, mənə dəyib qaçdın?"

Havada əl-üz ləyənindəki qaynar su ləpələnirdi. Alabəzək bir şəlalə. Elə bir göy qurşağı ki, tək qalmaq istəmədi. Köpük və Günəş. Ümid. Boyun-boğazından su axırdı, sonra külək qalxdı, sərin gəldi. Lap sonra da ki, göz qapaqları ağırlaşdı, ağzında ucuz ətriyyat qoxusuna bənzər duzlu bir tam duydu. Bu da çoxdan su görməyən üzün həniri və qat-qarışıq ruhi bir substansiya; O anda kabinədəki şofer qız müstəntiqin yaddaşından büsbütün silinib getdi. Həm də qızın qıltar pambığa bənzəyən dodaqları. Qızın hissiyyatlı, elektrik düyməsinə oxşayan döşü də həmçinin. Sonra, əlində onun vizit kartını tutmuş o hikkəli qadın – uzaqda görükən başı dumanlı dağların mənzərəsi kimi yaddaşına yenidən qayıdıb gəldi. "Ay it uşağı!"

- Ay it uşağı, canından keçmisən? – bunu deyən əlində ləyən tutmuş, təpiyini yerə döyən gözətçiydi.

Din Qouer başa düşdü ki, söz ona deyilir. Başındakı su damcılarını silkələdi, boynunu kirli burun yaylığıynan sildi, axtüf eləyib yerə tüpürdü. Gözlərini döyüb bu çətin vəziyyətdən qurtulmaq xətrinə əvvəlki şəklini aldı, dimdikinə gözətçiyə zilləndi. Kömür kimi qapqara, həyasız, hərəsi müxtəlif boyda olan sarsaq gözlər, yemişan meyvəsinə bənşəyən yumru, qırmızı burun, göyərmiş dodaqlar və möhkəm qıcanmış dişlər. İlan, ya da soxulcan kimi qıvrılmış bədənindən isti vururdu. İstiylə bərabər hikkəsinin alovu da körüklənirdi. Kəlləsi sobadakı kömür təkin, ya ildırım kimi qızıb ağappaq olmuşdu və sinəsi qeyzlə dolub daşırdı.

Gözətçinin cod, qara birçəkləri eynilə itinkinə oxşayırdı. Görünür, Din Qouer də öz görkəmi ilə gözətçini qorxutmuşdu. Burun pərələrindəki tüklər qaranquş quyruğu kimiydi. Din Qouerin ağlından keçdi ki: – "Yəqin orda qara bir qaranquş yuva qurub, yumurtlayıb, hətta bala çıxardıb". Və o həmənki qaranquşu nişan alıb tətiyi çəkdi. Yenə! Bir də!

Güllə səsləri mədən darvazasındakı sakitliyi param-parça elədi. Bu səs o kürən köpəyin hürüşünü də batırdı və ətrafdakı kəndçilərin diqqətini özünə çəkdi. İçkidən xumarlanmış sürücülər maşınların kabinəsindən sıçrayıb yerə tökülüşdü. Eşşəyin yumşaq dodaqlarına küknar iynələri batıb qanatdı. Arabaya qoşulu kəl, ağır başını qaldırıb hətta gövşəyini belə saxladı. Əvvəlcə hamı yerində donub qaldı, sonra hamı elə dəstəynən özünü hadisə yerinə çatdırdı. Saat düz 10.35-də Loşan şaxtasının gözətçisi əlləri ilə başını qarmalayıb yerə yıxıldı. Ağzından köpük daşdandı, bədənini əsməcə tutdu.

Din Qouer – üzündə sırtıq ifadə, əlində parıldayan tapança ilə Himalayda bitən ağac kimi dimdik dayanıb durmuşdu. Tapançanın lüləsindən çıxan göyümtül tüstü böyür-başındaydı.

Camaat darvazanın dəmir çubuqlarından yapışıb heyrət içində baxırdı. Adama elə gəldi ki, kiminsə cırıltılı səsi aranı qatana qədər uzun bir müddət keçib:

- Öldürdülər! Ay camaat, gözətçi Laonu öldürdülər!

Din Qouer, daha doğrusu, o qara-göyümtül Himalay ağacının dodağı qaçdı.

- Bu qoca köpək o qədər yamanlıq eləyib ki?! Ona yaxşı olur...

- Onu gərək kulinar akademiyasına satasan, xüsusi şöbəyə!

- Bu qoca əbləhin əti heç bişəndi?

- Oranın yeməkxanasına ağappaq, mamlımatan oğlanlar lazımdı. Qocayçın məətəl qalan var?

- Verin heyvanxanaya, qurdlara yem olsun!

- Guya canavar ona məətəlmiş?!

- Onda qoy aparsınlar əkin-biçin yerinə, bəlkə gübrəyə yaradı!

Din Qouer tapançanı havada oynatdı. Tapança bir anlığa gümüş güzgü kimi bərq vurdu. Tapançanı elə havadaca tutan müstəntiq əlindəkini darvaza ağzına yığışanlara göstərdi. Bu balaca, zərif, əntiqə şey doğrudan da əsil tapançaya oxşayırdı.

- Ay camaat, bəsdi hay-küy saldız! Bu eləbelə uşaq oyuncağıdı!

Bunu deyib tapançanın hansısa düyməsini basdı, korpus ikiyə bölündü və oyuncağın içərisindən qatı plastikdən düzəlmə, çox da iri olmayan tünd qırmızı diski çıxarıb hamıya göstərdi.

- Bunun hər dişi, paxla boyda barıtı sıxır. Baxın. Tətiyi çəkən kimi disk fırlanır, güllə səsi çıxarır. Bu oyuncağı, teatrda əlbəsə kimi də işlətmək olar. Ya da idman yarışlarında start tapançası! Beləsi hər univermaqda satılır!

Bu sözdən sonra o barabanın dəliyinə "qırma" qoyub tapançanı təzədən yığdı, tətiyi çəkdi: part!

- Bax bu cürə, – malını işə verən satıcı kimi izah elədi. – İnanmırsız, baxın. – Lüləni biləyinə tuşlayıb, yenə tətiyi çəkdi.

- Van Lyanszuy! – sürücülərdən biri qışqırdı. Yəqin ki, o havaxtsa dəbdə olan "Qırmızı fənər" tamaşasına baxmışdı.

Din Qouer əlini qaldırdı:

- Bu yalançı tapançadı, ay camaat! Yalançı olmasaydı, indi mənim qolumu o tay-bu tay deşmişdi. Düz demirəm? – Günün işığında onun biləyindəki sarımtıl dairə görükdü, kəsif barıt qoxusu da bir yandan...

Müstəntiq tapançanı cibinə dürtüb, hələ də yerdə uzanıb qalan gözətçiyə yaxınlaşdı və onu təpiyi ilə dümsüklədi.

- Ay kişi, qalx ayağa! Özüvü gülünc günə qoyma!

Gözətçi elə əli başındaca yerdən qalxdı. Sifəti həl bişən yeni il peçenyesi kimi sapsarıydı.

Din Qouer sözünün ardını gətirdi:

- Mənim nə qəsdi-qərəzim var ki, səni öldürüm? Gözünü qorxutdum, bəsdi. Sənə iş tapşırıblar. Saat 11-ə işləyir, darvaza bu vaxtacan gərək açılaydı!

Gözətçi əllərini sifətinə yaxınlaşdırıb, baxdı. Sonra öz gözünə inanmayıb başına toxundu, sonra yenə əllərinə baxdı. Qan-filan yoxuydu. Özünün diriliyinə əmin olandan sonrasına, dərindən köks ötürüb ürkək səsnən soruşdu:

- Bəs sən burda neynirsən?

Din Qouer bic-bic irişdi:

- Şəhərdən göndəriblər. Mən bu mədənin təzə direktoruyam!

Gözətçi köşkə cumdu. Əlində iri, parıldaq açar qayıtdı. Deməyən qədər yekə qıfıla o açarı saldı və darvazanı canqa-curunqnan açdı. Camaatın arasına hay düşdü. Hərə öz maşınına tərəf götürüldü və bir neçə dəqiqədən sonra motor nəriltisindən ağız deyəni qulaq eşitmədi.

Sonra maşın sürüsü sel kimi yerindən tərpəndi,ləngər vura-vura bir-birinin dalınca darvazadan içəri təpildilər: bu həngamə iri və iyrənc bir tırtıla oxşadı. Din Qouer qırağa sıçradı: içərisində izahı çətin bir peşmançılıq baş qaldırdı. Sonra elə bil düz bağırsağı daraldı, bədənində qan dövranı yeyinlədi. Ağrı güc gəldi və Din başa düşdü ki, köhnə babasili özünü tanıtdırır. "Yenə əvvəlki kimi bayıra qan gedəcəyəm, dava-dərmana möhtac..." Amma içindəki pərtlik asta-asta səngidi – olacağa çarə yoxdu, əyər-əksiy onsuz da labüddü. Elə babasilin özü kimi. Ortada qalan yenə İlahinin sirri-sehri, möcüzüdü. Görəsən, bu möcüz indi özünü nədə bəlirtəcək?

Gözətçi dayanıb durmadan elə baş əndərməyindəydi ha... Çöhrəsindəki qondarma tə-

bəssüm sifətinə belə sığışmırdı:

- Möhtərəm rəhbər, xahiş edirəm, buyurun növbətçi otağına, hər halda orda sizinçün oturmağa yer taparıq.

Vəziyyətə uyğun münasibəti dəyişməyə adətkər olan Din Qouer gözətçinin dalınca düşüb getdi.

Geniş otaq. Çarpayı. Qara yorğança. İki metal termos. İri burjuy sobası. İt başıycan iri kömür parçaları. Divara yeni ildən qalma bayağı bir şəkil yapışdırılıb və o şəkildə əlində uzunömürlük rəmzi – ərik tutan lüt-ətcəbala, alyanaq bir cocuq çəkilib. Az qalırdı uşağın, çəhrayı barama qurduna bənzəyən gözəl çükü – lap canlı kimi tərpənsin. Yenə ürəyi sancdı, qursağı daraldı.

Otaq dözülməz dərəcədə istiydi. Soba alışıb-yanır, alovun gücündən kərənayların yarısı və bütün korpus qıpqırmızı qızarmışdı. Küncdən sallanan hörümçək isti havanın təsirindən yüngülcə yellənirdi. Dinin bədəni birdən qaşındı və burnu qıcandı.

Gözətçi müticəsinə dil yetirdi:

- Yoldaş direktor, soyuq deyil ki?

- Dəhşət soyuqdu. – Din Qouer əsəbi halda, dolamaq xətrinə mızıldandı.

- Kömürümüzə nə gəlib? Qalarıq bu saat...

Gözətçi bunu deyib əyildi. Çarpayının altından sapı qırmızıya çalan qəhvəyi rəngli iti bir naçaq çıxardı. Müstəntiq də əlini istər-istəməz belinə atdı: əsl tapançanı orda gizlətmişdi. Gözətçi eləcə, qamətini düzəltmədən sobaya yaxınlaşdı, çöməldi və yastıq boyda bir kömürdən yapışdı. Bir əliynən kömürü tutub, o biri əliynən naçağı endirdi. Al ey! Və kömür xırpalandı. Kömürün qopan yerləri işıldadı, elə bil qıraqlarına civəələnmişdi. Bir neçə dəfə vurdu – və kömür lap paralandı. Sonra sobanın qapağını açdı. Qıpqırmızı qızarmış qığılcımlar sobanın içərisindən külək vururmuş kimi xışıltıyla bayıra səpələndi. Üz-gözündən tər axan müstəntiqin bir gözü elə sobaya kömür qalayan gözətçidəydi.

- Bu dəqiqə alışacaq, – gözətçi üzr istəyirmiş kimi dedi. – Bizim kömür yumşaqdı, tez yanıb keçir. Gərək elə həmişə əlin üstündə ola.

Din Qouer yaxasını açdı və beysbol papağı ilə alnının tərini sildi.

- Niyə axı sentyabrdan ocaq qalayırsız?

- Yoldaş direktor, soyuqdu da, neyniyək?.. – Gözətçinin səsi titrədi. – Yaman soyuqdu. Nolar, kömürdən boluq. Görürsüz, dağ boydadı.

Gözətçinin ovurdları batmış sifəti həddən artıq qızarmış kömbəni xatırladırdı. Din Qouerin yenə ona sataşmağı tutdu.

- Mən direktor-zad deyiləm ey! İş dalınca gəlmişəm. Sən ocağı ürəynən qala!

Divardakı körpə canlı kimi yenə qəşş elədi. Din Qouer gözlərini qıyıb bu qəşəng uşağa bir də nəzər yetirdi. Bircə göz qırpımında sifəti dəyişən gözətçi təzədən naçağı qamarladı.

- Özünü direktor kimi qələmə verib camaatı güllələbaran eləyirsən! Düş qabağıma, səni dövlətə təhvil verəcəm!

Din Qouerin yenə şitliyi tutdu:

- Bəs doğruçu təzə direktor olsam necə?

Bir anlığa fikrə gedən gözətçi yenə irişdi, naçağı təzədən çarpayının altına itələyib, ordan bir şüşə çaxır çıxartdı. Mırıq dişləriynən şüşənin tıxacını açdı, əvvəlcə özü başına çəkdi, sonra nəfəsini dərib şüşəni Din Qouerə uzatdı. Çaxırın içində sarımtıl-solğun jenşen zoğu və uzun caynaqlı tikansız qara əqrəblər üzməkdəydi...

*tərcümə* V.Ənvəroğlunundur